*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 168-173* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.168*

# Bədii nəsrdə avtobioqrafizmlər *(1960-1990-cı illər)*

**Mətanət Abdunova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: abdunovametanet@gmail.com

**Annotasiya.** Avtobioqrafik əsərlər araşdırılarkən ilk növbədə müəllifin şəxsiyyəti, həyatı və ona olan münasibət diqqət mərkəzində olur. Ədəbiyyatşünaslıq və ictimai fikir yazıçının özü və yaradıcılığı haqqında formalaşan qənaətləri araşdıraraq, onun əsərlərinin dəyərini müəyyənləşdirir. Bu cür əsərlərdə müəllifin psixoloji, sosioloji, kulturoloji və estetik baxışları əks olunur. Avtobioqrafik obraz yaradan yazıçı öz xarakterini, davranışlarını və psixoloji vəziyyətini dərindən anlamalı, yüksək müşahidə qabiliyyətinə malik olmalıdır. Belə əsərlər təkcə fərdi həyatı deyil, eyni zamanda, müəyyən bir dövrün mənzərəsini də əks etdirir. Onların avtobioqrafiyadan əsas fərqi ondadır ki, müəllif gerçək hadisələri və tanıdığı insanları təxəyyül süzgəcindən keçirərək bədii formada təqdim edir.
**Açar sözlər:** bədii nəsr, yazıçı, avtobioqrafizm

**Məqalə tarixçəsi:** göndərilib – 26.09.2025; qəbul edilib – 10.10.2025

# Autobiographisms in the artistic prose *(the 1960s-90s)*

**Metanet Abdunova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: abdunovametanet@gmail.com

**Abstract.** The personality and life of the author and attitude towards him first of all come into prominence when examining autobiographical works. Literary criticism and public opinion determine the value of an author’s work by investigating the conclusions formed about the writer himself and his creativity. This kind of works reflect the psychological, sociological, cultural and aesthetic views of the author. The author who creates an autobiographical character must deeply understand his or her own character, behavior, and psychological state, and must have a high level of observation skills. Such works reflect not only the life of an individual, but also the landscape of a certain era. Their most important difference from autobiographies is that the author presents real events and people he knows in a fictional form, filtered through his imagination.
**Keywords:** artistic prose, writer, autobiographism

**Article history:** received – 26.09.2025; accepted − 10.10.2025

## Giriş / *Introduction*

1960-1990-cı illər Azərbaycan nəsri həm ədəbi inkişaf, həm də siyasi və ictimai dəyişikliklər dövrü olmuşdur. “*Bu dövrdə milli özünüdərk üçün son dərəcə mühüm faktor olan tarixin dürüst milli ideoloji konsepsiyada təqdimi də, sosioloji və politoloji şüurun milli prinsiplər əsasında formalaşması da, etnogenezislə bağlı problemlər də, milli azadlıq ideyaları da tarixdən, politoloji*

*sahələrdən daha çox, ədəbiyyatda və ədəbiyyatşünaslıqda bədii və elmi-nəzəri tədqiqatın predmetinə çevrilməyə başlayır"* [6, s.3]. Bu illərdə yazılan əsərlərdə avtobioqrafizm güclü şəkildə özünü göstərirdi. Ü.Mikayılov avtobioqrafiya haqqında yazır: "*Avtobioqrafiya bilavasitə yazıçının həyatını və yaşantılarını əks etdirən ədəbi nümunə kimi dəyərləndirilir. Bu səbəbdən də avtobioqrafiyaların yazılmasında zaman məfhumu əhəmiyyətli məsələdir*" [3, s.3]. Yazıçılar sovet senzurası səbəbindən avtobioqrafik hadisələri bəzən dolayı yollarla, simvolik və metaforik ifadələrlə çatdırırdılar. 1990-cı illərdə isə müstəqillik dövrünün təsiri ilə daha açıq və səmimi avtobioqrafik nümunələr ortaya çıxdı. Müəlliflər öz həyat təcrübələrini, uşaqlıq və gənclik xatirələrini bədii əsərlərinə daxil etməyə başlayıblar. Sovet dövründə mövcud olan senzura səbəbindən avtobioqrafik hadisələr bəzən simvollar və obrazlar vasitəsilə ifadə edilirdi. 1980-ci illərdən etibarən güclənməyə başlayan milli özünüdərk yazıçıların avtobioqrafik əsərlərinə də təsir edirdi.

**Əsas hissə / *Main part***

Yazıçıların avtobioqrafik obraz və ya əsər yaratmaqda əsas məqsədləri görüb yaşadıqlarını və eşitdiklərini bədii ədəbiyyata gətirməklə, dövrünün çatışmazlıqlarını oxucuya çatdırmaq idi. Sovet dönəmində təhdidlərə və təqiblərə məruz qalan ədiblər avtobioqrafik örnəklər vasitəsilə milli-mənəvi dəyərlərimizi yaşatmağa, təbliğ etməyə, avtobioqrafik surətlərlə sətiraltı mənaları oxucularına çatdırmağa çalışırdılar.

Əsərlərdə avtobioqrafizmlərə müraciət olunması Xaqani Şirvanidən başlamış və müasir ədəbiyyatımızda da davam etməkdədir. Vaxtilə Nizami Gəncəvi və Məhəmməd Füzuli də hətta öz həyatlarına aid epizodları əsərlərində ustalıqla işlətmişlər. Sözsüz ki, epik növdə avtobioqrafizmlərdən istifadə etmək lirik növə nisbətən fərqlənir. Bu, ədəbi janrın həcminin böyük olması ilə əlaqəlidir, desək, yanılmarıq. Belə ki, nəsr nümunələrində epik təsvirlərə geniş yer vermək imkanı geniş olduğundan burada yazıçı təxəyyülü işə düşür və əsərdə yazıçı həyatının görüb keçirdiyi təəssüratları daha geniş təsvir edə bilir.

Anar, Elçin, M.Süleymanlı, İ.Şıxlı, İ.Muğanna, Y.Səmədoğlu, S.Əhmədli və digər görkəmli Azərbaycan yazıçılarının əsərləri öz ideya dərinliyi və mövzu aktuallığı ilə cəmiyyətin, ədəbi tənqidin və geniş oxucu kütləsinin marağına səbəb olmuş, müxtəlif aspektlərdən təhlil edilmişdir. Onların əsərlərindəki avtobioqrafizmlərin xüsusi önəm daşımasının əsas səbəbi isə həmin əsərlərin real həyat hadisələri ilə sıx bağlı olması və tarixi gerçəklikləri əks etdirməsidir. Burada gündəlik həyat hadisələrinin fonunda keçmiş həqiqətlər üzə çıxır. Yazıçıların əsərlərində cəmiyyət üçün vacib olan suallara cavab axtarışları aparılır, diqqət qlobal problemlərə yönəldilir və milli-mənəvi dəyərlərin qorunması məsələsi önəmli yer tutur. Bütün bunlar onların yaradıcılığının müasir dövrdə də öz aktuallığını qoruyub saxladığını göstərir. İ.Əfəndiyevin "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1970), İ.Şıxlının "Cəbhə gündəlikləri" (1970) və s. əsərləri XX əsrin avtobioqrafik məzmun daşıyan dəyərli nümunələridir. Xalq yazıçısı Əli Vəliyev "Budağın xatirələri" (1974) adlı avtobioqrafik əsərində böyük bir tarixi dövrün mənzərəsini yaratmışdır. Afaq Məsud qeyd etmişdir ki, "Budağın xatirələri" əsərində yazıçının yeniyetməlik dövrlərini təsvir edən fəsilləri isə göz yaşlarsız oxuya bilmədim. Orada havanın ayazı da, torpağın nəmi də ata-anasını, qohum-əqrəbasını faciəvi şəkildə itirib çöl-biyabanlarda yalquzaq kimi tək-tənha qalmış yeniyetmə Budağın ağrıları ilə bir sızıldayır. Bax, əsl ədəbiyyat budur. Cümlələr sadə və qısa, təsvirlər aydın və təsirlidir. Mətn əzəli və dəyişməz insan saflığı, ilahi ağrılar və nisgillə doludu..." [10].

**1960-1980-ci illərdə roman və hekayə janrının ustası sayılan İsa Hüseynovun (Muğanna)** "İdeal" (1980) əsərində müəllifin öz düşüncələri, həyatda qarşılaşdığı çətinliklər və dövrün mənəvi-ideoloji problemləri əks olunmuşdur. Müəllifin dərin fəlsəfi baxışlarını, dünyagörüşünü və şəxsi həyatından müəyyən avtobioqrafik cizgiləri özündə əks etdirən "İdeal" (1985) romanında yer alan bəzi hadisələr və obrazlar yazıçının öz həyat təcrübələrindən ilhamlanaraq yaradılmışdır. Yazıçının

sovet dövründə yaşadığı təzyiqlər və cəmiyyətin ideoloji basqıları onun əsərlərində öz əksini tapmışdır. "İdeal"da insanın fərdi azadlığı ilə kollektiv düşüncə arasında qalması, sovet sisteminin yaratdığı mənəvi boşluq açıq şəkildə təsvir edilir. Yazıçının yaradıcılığında milli-mənəvi dəyərlər hər zaman ön planda olmuşdur. "İdeal" romanında da milli kimlik, tarixi yaddaş və insanın mənəvi borcu mövzuları mühüm yer tutur. Bu isə İ.Muğannanın öz keçmişinə və tarixi köklərinə sıx bağlılığını göstərir.

İsa Muğannanın eyni zamanda "Məhşər" (1979) romanı da yazıçının həyat və dünyagörüşünə aid avtobioqrafik elementlər daşıyır [4]. "Məhşər" romanı dərin fəlsəfi, tarixi və mistik qatlara malik olmaqla yanaşı, müəllifin həyat təcrübələrini və şəxsi baxışlarını da əks etdirən avtobioqrafik xüsusiyyətlərə malikdir. Romanın süjet xətti və mövzusu baxımından yazıçının həyatı ilə üst-üstə düşən bir sıra məqamlar vardır. İsa Muğanna sovet dövründə yaşamış və dövrün ideoloji çərçivələri içində öz fərdi dünyagörüşünü qorumağa çalışmışdı. "Məhşər"in əsas qəhrəmanı Nəsimi də öz dövrünün ideoloji basqılarına, dini-siyasi mübarizələrinə qarşı çıxır. Bu isə Sovet rejiminin məhdudiyyətlərinə baxmayaraq, müəllifin azad düşüncə uğrunda apardığı mübarizənin əsas göstəricilərindəndir.

Mövlud Süleymanlının "Köç" (1980) [8] əsərində yazıçının kənd həyatından gətirdiyi avtobioqrafik elementlər yer alır. Əsərdə yazıçının doğulduğu mühit, insan taleləri təsvir olunur. Mövlud Süleymanlı bu romanında avtobioqrafik ünsürlərdən geniş istifadə edərək, şəxsi həyat təcrübəsini və doğulub-böyüdüyü mühitin təsvirini öz yaradıcılığına gətirib. Onun əsərlərində uşaqlıq illəri, kənd həyatı, ailə münasibətləri və milli dəyərlər əsas yer tutur. Mövlud Süleymanlı özü kənd mühitində böyüdüyü üçün, romanda təsvir olunan məkanlar və yaşam tərzi onun uşaqlıq xatirələrindən qaynaqlanır. Kənd insanlarının adət-ənənələri, mərasimləri və mifoloji dünyagörüşü onun öz keçmişindən gələn təəssüratlarının bədii ifadəsidir. Yazıçının əsərlərində köçəri həyat tərzinin təsviri Azərbaycan xalqının tarixi yaddaşına əsaslanır. O, öz ata-baba ənənələrini, keçmişini romanın mərkəzinə gətirərək, köçəri ruhun əhəmiyyətini vurğulayır. Mövlud Süleymanlı uşaqlıqdan dinlədiyi nağıllar, əfsanələr və xalq hikmətlərini əsərə daxil etməklə, romanın dilini və süjet xəttini mifoloji elementlərlə zənginləşdirir.

İsmayıl Şıxlının yaradıcılığında da avtobioqrafizm mühüm yer tutur. O, həyat təcrübələrini və yaşantılarını bədii əsərlərində ustalıqla əks etdirən yazıçılardandır. II Dünya müharibəsində iştirak etməsi onun yaradıcılığında özünəməxsus dərin izlər qoymuşdur. Həmin iztirablar, faciələr və ağır nəticələr onun nəsrində geniş şəkildə öz əksini tapmışdır. "Konserv qutuları" əsəri də məhz müharibə mövzusuna həsr olunmuşdur. Əsərdə qəhrəmanların düşüncələrini izlədikcə oxucu hiss edir ki, müəllif təkcə təsvir etmir, həm də öz yaşadığı gerçək hadisə və duyğuları bölüşür. Bu, yazıçının müharibədə qazandığı təcrübələrin və keçirdiyi emosional sarsıntıların bədii obrazlar vasitəsilə oxucuya ötürülməsinə imkan yaradır. İsmayıl Şıxlı müharibə səhnələrini və insanların yaşadığı psixoloji sarsıntıları realizm prinsiplərinə uyğun olaraq, təsirli və inandırıcı şəkildə qələmə almışdır. B.Xəlilov İ.Şıxlı yaradıcılığı haqqında yazır: "İsmayıl Şıxlı şeirdə lövbər salmadan nəsrə yol aldı və bu işdə o, Mehdi Hüseynin sözlərini də unutmadı. Mehdi Hüseyn ona yalnız gördüklərini, bildiklərini yazmağı tövsiyə etmişdi. İsmayıl Şıxlı buna əməl edərək "Konserv qutuları", "Həkimin nağılı", "Səhəri gözləyirdik", "Kerç sularında", "Haralısan, ay oğlan?", "Raykom katibi", "Daşkəsən" oçerklərini, "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" romanlarını yazdı. O, nəsrin astanasından içəri daxil olduqdan sonra özünü tapdı və yaradıcılıq potensialını burada göstərə bildi. İsmayıl Şıxlı nəsr sahəsində nəinki özünü tapdı, həm də Azərbayca nəsrinin nəsr qəlibinə salınmasında ilk addım atdı" [2].

**II Dünya müharibəsi illərində sovet ordusunda xidmət etmiş** və cəbhə həyatının çətinliklərini şəxsən yaşamış İsmayıl Şıxlının "Cəbhə gündəlikləri" əsərində təsvir edilən hadisələr, əsgərlərin gündəlik həyatı, döyüş meydanındakı ağır şərait və psixoloji gərginlik müəllifin real təcrübəsinə əsaslanır. Əsərdə əsgərlərin yaşadığı psixoloji sarsıntılar, qorxu, vətən sevgisi, ölüm qorxusu və müharibənin mənəvi çətinlikləri detallı şəkildə təsvir edilir. Bu haqda Ə.Rəsulova yazır:

“İsmayıl Şıxlı Kür qırağı obalarda, Xəzər sahilindəki paytaxt şəhərdə, tələbə ikən mütaliə etdiyi saysız-hesabsız bədii və elmi əsərlərdə, müharibə zamanı iştirakçısı olduğu çoxlu cəbhə hadisələrində, insanların talelərində bir yazıçı kimi həmişə axtarışda olub. Şeir yazmaqdan əl çəkməsi həyatın geniş lövhələrini hərtərəfli səmərəli axtarışları ilə əlaqələndirirdi. İsmayıl Şıxlı orduya getdiyi vaxtdan qələbədən sonra doğma kəndlərinə qayıtdığı günədək həyatında baş vermiş ən vacib hadisələri öz gündəlik dəftərində qeyd edib. “Cəbhə gündəlikləri”nin əsas qəhrəmanı yazıçı özüdür. O, təmkinli, qorxu bilməyən cəsur bir əsgərdir. Müharibənin dəhşətlərini, saysız qanlı faciələri hər gün cəbhə yollarında görsə də, onun zərif qəlbi daşa dönmür. Mərhəmət hissi, insanın yaşamaq hüququna dərin hörmət onu bir an olsa belə tərk etmir. Səngərdə, çayları keçəndə, düşmən üzərinə cumanda həlak olan hər bir əsgərin arxasında təkcə onun özünü yox, min bir əzab-əziyyətlə ərsəyə gətirmiş ata-anasını, yaxınlarını, puç olmuş xəyalları görür” [5]. Müəllifin real döyüş təcrübəsi olduğu üçün bu təsvirlər olduqca canlı və inandırıcıdır. Əsər sanki bir xatirə dəftəri kimi yazılmışdır və burada müharibə illərində yazıçının apardığı qeydlər öz əksini tapmışdır. Bu da göstərir ki, yazıçı müharibə zamanı öz düşüncələrini və yaşadıqlarını yazıya köçürmüş, daha sonra bunları bədii şəkildə işləyərək, “Cəbhə gündəlikləri” əsərini yaratmışdır. Müəllif əsərdə döyüş yoldaşlarının fərqli xarakterlərini, onların həyat hekayələrini və müharibənin insan taleyinə təsirini açıq şəkildə göstərir. Buradakı obrazlar real insanlara əsaslanır, onların taleləri isə müəllifin ətrafında baş verən hadisələrin əks-sədasıdır. Müharibə təkcə fiziki yox, həm də mənəvi sınaqdır. İsmayıl Şıxlı öz əsərində əsgərlərin vətənə bağlılığını, ailəyə və doğmalara duyulan həsrəti, eyni zamanda müharibənin insanların mənəviyyatına vurduğu zərbələri təsvir edir. Bu, müəllifin müharibə haqqında realist və tənqidi baxışlarını əks etdirir. İsmayıl Şıxlı müharibə mövzusuna həsr etdiyi “Kerç suları” povestində Böyük Vətən Müharibəsinin dramatik reallıqlarını, insan iradəsinin və döyüş ruhunun sınağa çəkildiyi anları böyük ustalıqla qələmə almışdır. Povestdə Qara dəniz üzərində gedən qanlı döyüşlər, faşistlərə qarşı aparılan ağır mübarizə və Krım sahillərinə desant çıxarılması epik boyalarla təsvir edilir. Müəllif, cəbhədə baş verənləri yalnız quru statistika kimi deyil, real insan taleləri fonunda təqdim edir. Burada əsas diqqət müharibənin gətirdiyi məhrumiyyətlərə, qəhrəman əsgərlərin fədakarlığına və savaşın insan ruhunda buraxdığı izlərə yönəlir. İsmayıl Şıxlı müharibənin yalnız cəbhədəki döyüş səhnələri ilə məhdudlaşmadığını göstərir. O, həmçinin insanın daxili dünyasında baş verən toqquşmaları, qorxu ilə ümid, ölüm ilə həyat arasındakı mübarizəni də canlı boyalarla inandırıcı formada təsvir etmişdir. “Kerç suları” povesti, sadəcə bir döyüş xronikası deyil, həm də insan iradəsinin, fədakarlığın və müharibənin ağır reallıqlarının bədii salnaməsidir.

“Dəli Kür” (1957-1967) romanında müəllifin uşaqlıq və gənclik illərinin təsiri aydın görünür [9]. Baş qəhrəmanın yaşadıqları müəllifin öz keçmişindən qaynaqlanır. “Dəli Kür” romanı Azərbaycan ədəbiyyatında həm tarixi dövrün mürəkkəbliyini əks etdirən, həm də fərdi xarakterlərin daxili mübarizəsini dərin psixoloji çalarlarla canlandıran unikal əsərlərdən biridir. Yazıçı bu əsərdə yalnız bir xalqın ictimai-siyasi taleyini deyil, eyni zamanda insanın azadlıq və ədalət uğrunda apardığı mübarizəni ön plana çıxarmaqla yanaşı, həm də XIX əsrin sonlarında Rus imperiyasının hökm sürdüyü bir dövrdə Azərbaycanda baş verən hadisələri əks etdirir. Müəllif işğal siyasətinin yaratdığı sosial və iqtisadi çətinlikləri, kənd əhalisinin zülm içində yaşamasını, onların torpaqdan və meşələrdən məhrum edilməsini real hadisələr fonunda təqdim edir. Müharibə meydanına çevrilən Azərbaycan torpaqları həm xarici güclərin, həm də daxili ədalətsizliklərin təsiri altında əzilir. Əsərin baş qəhrəmanı Cahandar ağa da yazıçının öz kəndində, qohumları arasında yaxından tanıdığı insanların ümumiləşdirilmiş obrazı idi. “Cahandar ağa hər şeydən əvvəl, müəyyən dəyərlərin daşıyıcısıdır. Onun davranışlarını bu dəyərlər şərtləndirir. Dünyanın harmoniyası ilə bağlı onun təsəvvüründə bütöv bir konseptual yanaşma mövcuddur. Cahandar ağa ailə, namus, şərəf, kişilik, qeyrət və s. barədə görüşlərini fərdi olaraq özü üçün müəyyənləşdirməmişdir. O, bu dəyərləri xalq yaddaşından hazır şəkildə qəbul etmişdir [9, s.18].

Əsərdə xüsusi vurğulanan məsələlərdən biri də maarifçilik hərəkatının güclənməsi və Qori Müəllimlər Seminariyasının bu prosesdəki roludur. Seminariya yalnız elm ocağı kimi yox, həm də xalqın düşüncə tərzini dəyişən, ona yeni üfüqlər açan bir mərkəz kimi təsvir edilir. Yazıçı obrazlar vasitəsilə tərəqqipərvər və əks qüvvələr arasındakı toqquşmanı ustalıqla əks etdirir. Çernyayevski, Kipyani və Semyonov kimi maarifçi ziyalılar işığın və ümidin rəmzi kimi təqdim edilsələr də Petrov imperiyanın istismarçı siyasətinin nümunəsidir. Semyonovun səmanı göstərərək, işığın zülməti yarıb keçdiyini bildirməsi maarifin, elmin və biliklərin qaranlığa qalib gələcəyini simvolizə edir. İsmayıl Şıxlı bu romanı ilə ədəbiyyatda güclü xarakterlər yaratmaq, dramatik hadisələri oxucunun gözləri önündə canlandırmaq bacarığını nümayiş etdirir. “Dəli Kür” yalnız tarixi reallıqları əks etdirən bir əsər deyil, həm də insan qətiyyəti, ədalət axtarışı və zülmə qarşı mübarizə ruhunun tərənnümüdür. Yazıçının üzərində on il işlədiyi bu əsər Azərbaycan ədəbiyyatının ən dəyərli nümunələrindən biri kimi qalmaqdadır.

Yusif Səmədoğlunun “Qətl Günü” (1978-1980) əsəri müəllifin yaşadığı dövrün psixoloji çalarlarını və tarixi hadisələri özündə əks etdirən əsərdir [10]. Əsərin əsas personajı Yaşlı kişinin xarakteri, düşüncələri və həyata baxışı Yusif Səmədoğlunun öz tərcümeyi-halı ilə səsləşir. Yaşlı kişinin keçmişə aid nostalji duyğuları və sovet dövrünün törətdiyi mənəvi zədələr müəllifin öz yaşantıları ilə paralellik təşkil edir. Müəllifin ailəsi və özü XX əsrin böyük siyasi və tarixi hadisələrinin təsiri altında formalaşmışdır. “Qətl günü”ndə təsvir edilən repressiyalar, müharibənin insan həyatına vurduğu yaralar Yusif Səmədoğlunun öz ailəsinin yaşadıqları ilə əlaqələndirilə bilər. G.Əhmədova əsər haqqında yazır: “Qətl günü” müxtəlif dövrlərdə cəmiyyətin sosial-siyasi və mənəvi-əxlaqi problemləri bədii təcəssümünü tapmışdır. Əsərdə üç müxtəlif zaman kəsiyində baş verən hadisələr əks olunmuşdur. Bu hadisələri bir-birinə bağlayan isə şərin hər bir dövrdə meydan sulamasıdır. Keçmiş itib getmiş bir varlıq deyil, daim yaşayan, bu günün işlərinə təsir edən bir qüvvədir, burada keçmişlə indinin ünsiyyəti yaranır” [1, s.37]. Onun atası Səməd Vurğun sovet sistemində yüksək mövqedə olsa da, Yusif Səmədoğlu həmin sistemin yaratdığı sıxıntıları hiss edib və onu tənqid etmişdir. Əsərdə Bakının keçmişinə və dəyişən simasına xüsusi diqqət yetirilir. Bu, Yusif Səmədoğlunun doğulub böyüdüyü mühitə bağlılığını və şəhərin tədricən dəyişməsinə olan münasibətini əks etdirir. Bakı mühitini nostalji çalarlarla təqdim edən müəllifin şəxsi həyatında yaxınlarını itirməsi, ölümün qaçılmaz olduğu ilə bağlı düşüncələri romanın fəlsəfi dərinliyində öz əksini tapır. Əsərdə insan taleyi, keçmiş və gələcək arasında qalan nəsillərin düşüncələri, məhz onun şəxsi həyatının əksi kimi yozula bilər. Ümumilikdə, “Qətl günü” yalnız tarixi və ictimai mövzulara toxunmaqla qalmır, həm də müəllifin öz yaşantılarını və düşüncələrini bədii şəkildə əks etdirir. Bu avtobioqrafizmlər isə əsərin daha səmimi və təsirli alınmasına səbəb olur.

## Nəticə / *Conclusion*

1960-1990-cı illər Azərbaycan nəsrində avtobioqrafizm yazıçıların şəxsi təcrübələri, yaşadıqları dövrün sosial-siyasi təsiri və fərdi duyğularının bədii ifadəsi kimi özünü göstərdi. Bu dövr, Azərbaycanın sosial-siyasi həyatında çox böyük dəyişikliklərin baş verdiyi bir mərhələ idi: Sovet İttifaqının son illəri, müstəqillik hərəkatı və cəmiyyətin müxtəlif sahələrindəki yeniliklər. Yazıçılar bu mürəkkəb və dəyişkən dövrü öz əsərlərində öz həyat hekayələri və təcrübələri ilə əks etdirməyə başladılar. Lakin ilk illərdə avtobioqrafik elementlər əsərlərdə daha çox metaforik və simvolik formada təqdim olunurdu. Müəlliflər, bəzən qorxularından və senzura təzyiqlərindən qorunmaq üçün şəxsi həyatlarını birbaşa deyil, dolaylı olaraq öz əsərlərində çatdırmağa çalışırdılar. Bu dövrdəki avtobioqrafik elementlər, yazıçıların mənəvi vəziyyətini və şəxsi təcrübələrini daha geniş, həm də konkret tarixi şəraitdə əks etdirirdi. Məsələn, Sovet rejiminin sərt məhdudiyyətləri altında yaşayan yazıçılar öz əsərlərində yalnız gündəlik həyatlarını deyil, həm də daxili azadlıqlarını, mədəniyyətə olan münasibətlərini və həyatda qarşılaşdıqları maneələri simvolik

şəkildə təqdim edirdilər. Metaforalar, simvollar və ikili mənalar cəmiyyətin repressiv mühitində yazıçıların öz duyğularını ifadə etmə yolları idi.

Azərbaycan ədəbiyyatında avtobioqrafizm yalnız müəllifin həyatını təsvir etməkdən ibarət deyil, eyni zamanda dövrün gerçəkliklərini, cəmiyyətin inkişafını və insanların yaşadığı tarixi çətinlikləri də özündə əks etdirən bir vasitə olmuşdur. Bu, xüsusilə müstəqillik illərində daha çox hiss olunur. Avtobioqrafizm həm də yazıçının şəxsi həyatını cəmiyyətin daha geniş sosial və tarixi kontestində əks etdirmək imkanı yaradırdı. Beləliklə, 1960-1990-cı illər Azərbaycan nəsrində avtobioqrafizm yalnız müəlliflərin şəxsi təcrübələrini və daxili dünyasını ifadə etməklə kifayətlənməyib, həm də onların yaşadığı dövrün, cəmiyyətin və tarixin təsirlərini bədii şəkildə təqdim etməyə imkan yaratmışdır. Bu dövrdə avtobioqrafizm, həmçinin Azərbaycanın mədəni və ədəbi tarixində vacib bir dönüş nöqtəsi olmuşdur.

### *Ədəbiyyat / References*

1. Əhmədova G. Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları. – Bakı: Elm və təhsil, 2018, 64 s.
2. Xəlilov B. İsmayıl Şıxlı insanda dostluğu, aydınlığı və inamı vacib sayırdı. https://www.anl.az/down/meqale/xalqcebhesi/2014/mart/355872.htm
3. Mikayılov Ü. İsa Muğannanın yaradıcılığında avtobioqrafizm. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dis.. avtoreferatı, 2024, 30 s.
4. Muğanna İ. Seçilmiş əsərləri. 6 cilddə III cild, – Bakı: Avrasiya Press, 2009, 300 s.
5. Rəsulova Ə. İsmayıl Şıxlının ədəbi yaradıcılığına bir baxış. https://www.anl.az/down/meqale/olaylar/2019/oktyabr/679124.htm
6. Rzayev T. Müasir Azərbaycan nəsrində epos ənənəsi (İsmayıl Şıxlının Dəli Kür Romanı əsasında), filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dis... avtoreferatı, 2013, 25 s.
7. Səmədoğlu Y. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 320 s.
8. Süleymanlı M. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 408 s.
9. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Şərq-Qərb, 2005, 408 s.
10. https://azertag.az/xeber/gorkemli_edib_xalq_yazichisi_eli_veliyevin_budagin_xatireleri_romani_yeniden_nesr_olunmusdur-28052

## Автобиографизмы в художественной прозе *(1960-1990 гг.)*

**Метанет Абдунова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: abdunovametanet@gmail.com

**Резюме.** Автобиографизм в художественной прозе есть отражение писателем в литературном произведении некоторых фактов, случаев, эмоций и практики из своей жизни. Такой подход имеет в виду интеграцию в художественный сюжет личных чувств и помыслов автора, не изображая полной картины описания жизни. Этот метод в художественной литературе означает выражение в художественном сюжете реалий из жизни писателя. Автобиографизм не ограничивается лишь предоставлением биографических фактов, он является отражением мировоззрения, психологии, влияния проживаемой эпохи писателя. Азербайджанская литература богата автобиографизмами. Иногда писатель при написании своего произведения для включения иных оттенков, создания реальной картины, приводит факты, события из своей жизни соответственно художественному стилю. Это служит для донесения читателю произведения более реального, оригинального впечатления. В статье в хронологическом порядке проведён анализ употребляемых в азербайджанской литературе автобиографизмов за период 1960-1990 гг.
**Ключевые слова:** художественная проза, писатель, автобиография